**Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyətinin verilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin Azərbaycan Respublikası Hökuməti adından imzalanması səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu **Heydərova** verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Estoniya tərəfinə müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 2 mart 2000-ci il**
**№ 339**